# *ROSACEAE* JUSS. FƏSİLƏSİ QARABAĞDA

**Tünzalə Qasımova, Zemfira Əliyeva,**
**Tacə Safquliyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Botanika İnstitutu,*
*qasimova.tunzala@inbox.ru*

Qarabağ meşələrində həmçinin *Rosaceae* Juss. fəsiləsindən olan ağac, kol və ot bitkiləri geniş yayılmışdır. Burada dərman, qida əhəmiyyətli və vitaminlərlə zəngin böyürtkən (*Rubus* L.), göyəm, alça (*Prunus* L.), armud (*Pyrus* L.), alma (*Malus* Hill.), əzgil (*Mespilus* L.), quşarmudu (*Sorbus* L.), çiyələk (*Fragaria* L.), qaytarma (*Potentilla* L.), çıngılotu (*Geum* L.) və s. bitkilərə rast gəlmək olur. Ərazidə *Rosaceae* fəsiləsinin dekorativ (*Crataegus* L., *Cotoneaster* Medik, *Spiraea* L., *Pyracantha* Roem.), yem (*Alchimilla* L., *Poterium* L., *Sibbaldia* L.) və boyaq (*Sanguisorba* L., *Agrimonia* L., *Potentilla* L.) əhəmiyyətli bitkiləri də geniş yayılmışdır. Qarabağda rast gəlinən *Rosaceae* fəsiləsinin 25 cinsinə aid 101 növü 4 yarımfəsilə (*Spiraeoideae, Maloideae, Prunoideae, Rosoideae*) üzrə aşağıdakı kimi qruplaşdırılır (cədvəl). Cədvəldən göründüyü kimi, ən çox növ sayı ilə *Potentilla* (20 növ), *Rosa* (14 növ), *Alchimilla* (12 növ), *Crataegus, Rubus* (hər biri 8 növlə) cinsləri təmsil olunur. Digər cinslərin növlərinin sayı isə 1-6 arasında dəyişir. Qarabağda yayılan *Rosaceae* fəsiləsinin növləri həyati formalarına görə ağaclar (13 növ), kollar (34 növ) və ot bitkilərindən (54 növ, bunlardan çoxilliklər – 51 növ, birilliklər – 3 növ) ibarətdir.

**Cədvəl.** Qarabağda rast gəlinən *Rosaceae* fəsiləsinin taksonomik tərkibi

| Yarımfəsilə | Cins | Növlərin sayı |
|---|---|---|
| *Spiraeoideae* | *Spiraea* L. | 2 |
| *Maloideae* | *Amelanchier* Medik. | 1 |
| | *Cotoneaster* Medik. | 4 |
| | *Crataegus* L.<br>*Malus* Hill. | 8<br>1 |
| | *Mespilus* L. | 1 |
| | *Pyracantha* Roem. | 1 |
| | *Pyrus* L. | 4 |
| | *Sorbus* L. | 6 |
| *Pruneoideae* | *Prunus* L. | 2 |
| | *Amygdalis* (L.) Focke | 1 |
| | *Cerasus* (Mill.) A.Gray | 4 |
| | *Padus* Mill. | 1 |
| *Rosoideae* | *Rubus* L. | 8 |
| | *Rosa* L. | 14 |
| | *Fragaria* L. | 2 |
| | *Potentilla* L. | 20 |
| | *Sibbaldia* L. | 2 |
| | *Geum* L. | 2 |
| | *Filipendula* (Tourn) Mill. | 1 |
| | *Alchimilla* L. | 12 |
| | *Aphanes* L. | 1 |
| | *Agrimonia* L. | 1 |
| | *Sanguisorba* (Ruppius) L. | 1 |
| | *Poterium* L. | 1 |